# "İlham Əliyev və Böyük Qayıdış"

**Azərbaycan İnşaat və Memarlıq Elmi-Tədqiqat İnstitutunun şöbə müdiri, iqtisad elmləri üzrə fəlsəfə doktoru Eldar Nuriyevin "İlham Əliyev və Böyük Qayıdış" kitabı nəşr olunub. Kitab dövlətimizin başçısı, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə 44 günlük Vətən müharibəsində qazanılmış möhtəşəm Qələbənin 5 illiyinə həsr olunub.**




Bu, Eldar Nuriyevin ilk kitabı deyil. Müəllifin 2011-ci ildə "Azərbaycanın inkişafında tikinti kompleksinin rolu", 2016-cı ildə "Müstəqil Azərbaycanda tikinti: 25 il misilsiz inkişaf yollarında", 2022-ci ildə "Azərbaycanda tikinti: reallıqlar və inkişaf istiqamətləri" kitabları işıq üzü görüb. Bu nəşrlərin adlarından da göründüyü kimi, müəllif ölkəmizin tikinti kompleksinə yaxından bələd olan mütəxəssisdir.

Eldar Nuriyev həqiqətən də uzun illərdir təcrübəli inşaatçı-mühəndis kimi Azərbaycanda tikinti sahəsində çalışır və ötən dövr ərzində bu kompleksdə bir sıra rəhbər vəzifələrdə işləyib. O, bu sahəyə bilik və təcrübəsini sərf edib. Vaxtilə Ulu Öndər Heydər Əliyevin respublikada prioritet elan etdiyi tikinti sahəsinə, geniş vüsət alan inşaat işlərinə var qüvvəsi ilə dəstək verib.

Müəllifin yeni kitabı çar Rusiyasının himayəsi altında Ermənistan dövlətinin yaradılması, Azərbaycan torpaqlarına ermənilərin kütləvi köçürülməsi, bu köçürülmənin Qafqazın demoqrafik vəziyyətinə təsiri, tarixi Azərbaycan ərazisində "Dağlıq Qarabağ Muxtar Vilayəti"nin yaradılması, Azərbaycanda ermənilər tərəfindən törədilmiş soyqırımı və terror aktları, azərbaycanlıların Qərbi Azərbaycan torpaqlarından çıxarılması, XX əsrin 90-cı illərində ictimai-siyasi vəziyyətin gərginləşməsi və Qarabağın işğalından bəhs edilir.

Ulu Öndər Heydər Əliyevin yenidən rəhbərliyə qayıdışı, ölkədə yaranmış parçalanma təhlükəsi, Qarabağ cəbhəsində müvəqqəti atəşkəs elan olunması, ordu quruculuğu, bazar iqtisadiyyatına keçid və sosial-iqtisadi islahatların aparılması da kitabda işıqlandırılan mövzulardandır. Ulu Öndər Heydər Əliyevin layiqli davamçısı İlham Əliyevin prezidentliyi illərində Azərbaycanda sosial-iqtisadi inkişafın yeni mərhələsi və idarəetmə strategiyası, beynəlxalq və regional layihələrin həyata keçirilməsi, müasir Azərbaycan Ordusu və Zəfər tarixi mövzularına da nəşrdə geniş yer verilib. Eyni zamanda erməni işğalından azad edilmiş doğma Qarabağ və Şərqi Zəngəzura Böyük qayıdış, bu ərazilərin inkişaf perspektivləri, aparılan tikinti-quruculuq işlərindən, eləcə də Azərbaycanın mühüm əhəmiyyət kəsb edən Birləşmiş Millətlər Təşkilatının İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasına (COP29) uğurla evsahibliyi etməsindən, alternativ enerji mənbələrindən və su ehtiyatlarından səmərəli istifadə yollarından ətraflı bəhs olunur.

Kitabda həmçinin 44 günlük Vətən müharibəsindəki Zəfərdən sonra Qarabağa və Şərqi Zəngəzura uğurlu Böyük Qayıdış Konsepsiyası həyata keçirən Azərbaycan dövlətinin növbəti tarixi hədəfi - Qərbi Azərbaycana Qayıdış Konsepsiyası mövzusuna da toxunulub.

Bütün bunlar kitabda ayrı-ayrı başlıqlar altında dörd fəsildə yerləşdirilib. Onu da qeyd edək ki, kitab ingilis dilində də nəşr olunub.

***"Azərbaycan"***

Azərbaycan.- 2025.- 27 dekabr (№273).- S.11.